*Bir-birinə oxşar insanlar çoxdur. Belələrinə rast gələndə heyrətini gizlədə bilmirsən: "Bunlar yarı almadır ki..." Oxşar səslər, oxşar ləhcələr də var. Cahangiri ilk növbədə məhz bu keyfiyyətinə görə sevmiş, onun sənətinə vurulmuşam. Səsi, nəfəsi, zəngulәsi eynən ustad Kamandardır ki, var: "İlahi, bu dərəcədə oxşarlıq da olarmı?!"*



Elə bu maraqla da aşıq Cahangirin yaradıcılığını izləmiş, onun qatıldığı tədbirlərə can atmış, uğuruna sevinmişəm.

1960-cı ildə Gədəbəy rayonunun Çay Rəsullu kəndində sazlı-sözlü bir ailədə dünyaya göz açıb. İlk ustadı atası aşıq Sənan olub.

Cahangir sənətə gəlişini belə xatırlayır:

- Uşaqlıqdan aşıqlıq həvəsi ilə yaşamışam. Necə deyərlər, bu sənətin dəlisi, məcnunu olmuşam. Hələ birinci sinifdə ikən qarşıma məqsəd qoymuşdum ki, mütləq aşıq olacağam. Ustad Kamandarın yaxşı sözü var:

*Elə ki, cavanlıq yaşına yetdim,*
*Günəş tək önümdə parladı həyat.*
*Düşündüm, səsimi səslərə qatdım,*
*Tamam elm öyrəndim, bitirdim savad, -*
*Açdım qol-qanad...*

Beləcə illər keçdi. Mən uşaqlıq dövrü ilə vidalaşdım. Allah bütün ustadlara rəhmət eləsin! Əmrah, Kamandar havası gəlib beynimə düşdü. Mən Gədəbəy havasında pərvazlansam da bütün fikrim-zikrim Kamandarın yanına qanadlanırdı. Hamısı bizimdi. Mən ayrılıq salmıram. Sadəcə burada müxtəlif ləhcələr, avazlar var, barmaq var...

**- Yaxşı həmsöhbət olsan da yaman tələsirsən. Axı uşaqlığından əməlli-başlı söhbət eləmədin...**

- Atam aşıq Sənan Gədəbəy rayonunun Şınıx mahalında tanınmış sənətkarlardandır. Biz 5 qardaş onun səsində, avazında, sazında böyümüşük. Divarımızda həmişə asılı saz olub. Anam bizi ovutmaq üçün beşik başında layla deməyib, saz dınqıldadıb. Çala bilməsə də ürəyəyatımlı çox gözəl səsi var. Başqa uşaqlar kimi bizim oyuncağımız olmayıb. Anam bizi sazın səsi ilə kiridib. Nə isə, bu minvalla mən böyüdüm. Orta məktəbi kəndimizdə bitirdim. Sumqayıt şəhərinə gəldim. Burada texniki peşə məktəbinə girdim. Şəhər mühitinə düşəndə 16-17 yaşım vardı. Allah rəhmət eləsin, Sumqayıtda aşıq Sədi Abbasov adında gözəl bir sənətkar vardı. Əslən Ağstafadan idi. Burada saz sənətinin əsl təbliğatçısı, təəssübkeşi idi. Şəhərdə sazın meydanı bir az dardı. Gəlib düşmüşəm Sumqayıta. Darıxıram. Mən 1976-1977-ci illərdən danışıram. N.Nərimanov klubunda hər gün aşıq Sədinin dərnəyi olurdu. Saz sevənlər bunu bildiyi üçün hər axşam ora yığışırdılar. Mən onlara nisbətən çox kiçik idim. Çalıb-oxumağım xoşlarına gəldiyindən həmişə aşıq Sədidən xahiş edirdilər ki, o uşağı da gətir oxusun. Beləcə, mənim günüm-güzəranım sazla keçirdi...





# Sazın məcnunu

Elə bu vaxtlar aşıq Kamandar gəlib Sumqayıta çıxdı. Hələ uşaqlıqdan bu azman aşığın haqqında eşidib uzaqdan-uzağa ona vurulmuşdum. Kamandarın gəlişini mənə əslən Qazağın Salahlı kəndindən olan saz ustası Bəkir xəbər verdi: "Burada Aydın adında bir müəllim var. Aşıq Kamandar onun qonağıdır. Gedək onun yanına..."

**- Bu sənin Kamandarla ilk görüşün idi?!**

-Yox! Ona qədər mən Kamandarla görüşmüşdüm. Borçalıda - Kür üstü Kəpənəkçi kəndində. Ziyarətinə getmişdim. Ustad adam idi. Bildi ki, Gədəbəy dağlarını hansı arzularla aşıb gəlmişəm. Dedi ki, Allah səni öz istəyinə çatdırsın. Bu yanğını ki, tanrı sənə verib, o yolda köməyinə də yetəcək. Hələlik bir az başım qarışıqdır. Sonra mütləq görüşərik...

Elə həmin görüşdə mən Kamandardan bir dərs götürmüşdüm. Nə idi o?! Birgə çay içirik. Sazının, sözünün, özünün sehrinə düşdüyüm Kamandara diqqət edir, onun kimi oturub-durmağa çalışıram. Gülümsündü: "Bu saat sən mənim çay içməyimi oğurlayırsan..." Ustad məni çox düzgün oxumuşdu...

**-Qayıdaq Sumqayıt görüşünə...**

-İçəri keçib görüşdük. Hal-əhval tutduq. Mənə dedi: "Bir hava oxu!" Oxudum. "Dastanı" havasını. Bütün mahnılar kimi "Dastanı" da Kamandarın ifasında çox gözəl səslənir. M.P.Vaqifin sözlərinə:

*Cəmi gözəllərdən səni baş bildim,*
*O səbəbdən meylim sənə bağlandı...*

Kamandar dedi: "Saxla!" Sonra dəftərçədə mənə "5" verdi və bu qiyməti mötərizəyə aldı. Səbəbini soruşdum. Qayğılı çöhrəsinə təbəssüm qondu: "Ustada qulluq edəndən sonra mən bu mötərizəni götürəcəyəm..."

Bu söhbət 1987-ci ilin avqust ayında olub. Biz danışdıq-barışdıq ki, sentyabrda görüşəcəyik. Mən sentyabrın 2-də olmalıydım ustadgildə - Kəpənəkçidə. Ailə qayğıları imkan vermədi ki, Borçalıya axıradək gedəm. 7 ay sonra gəldim Tovuza - aşıq Alxan Niftəliyevin yanına. Ustad aşıq Əkbərin şəyirdi olub. Tovuzda məni tanıyır, maraqlanırdılar, avazımı bilirdilər. Ümumiyyətlə mən çəkinmirdim. Aşıq Kamandara da, Əkbərə də, İmrana da demişdim: "Əgər məndən aşıq olmayacaqsa gedim mal-qoyunumu otarım?!" Onlar isə "Sənin yaxşı gələcəyin var", deyə məni aşıq sənətinə daha qırılmaz tellərlə bağlayırdılar. Aşıq Alxan Tovuzda aşıq Mahmud Məmmədovun yanına getməyimi məsləhət bildi. Mən 3 il aşıq Mahmuda qulluq elədim. Sonra qayıtdım Bakı şəhərinə.

Hal-qəziyyə elə gətirdi ki, Kamandar da Bakı şəhərinə gəldi. Xəbər tutunca yanına getdim. 3-4 il də mən burada Kamandarın dizinin dibində durdum. Bir oğul kimi ona qulluq elədim. O da məni bir ata kimi qəbul etdi. Qayğı və diqqətini məndən əsirgəmədi. Allah ona qəni-qəni rəhmət eləsin! Arzu edirəm ki, bütün saz tutarları öz istədikləri ustada yetişdirsin. Çünki deyir:

*Könül, qulluq eylə kamil ustada,*
*Ustad görməyənin işi xam qaldı...*

Ustadsız aşıq olmaz. Doğrudur, musiqi məktəblərində saz şöbəsi var. İlkin mərhələdə öyrənmək üçün bəlkə də bu lazımdır. Amma necə olsa, aşıq ustad yanında olmalıdır...

**-Aşıq, nə qədər hava bilirsən?**

-Doğrusu, saymamışam. Ancaq nə qədər xahiş ediblərsə - "bilmirəm" söyləməmişəm. Ustadlardan nə öyrənmişəmsə hamısını ifa edirəm. Bütövlükdə mənim üç müəllimim olub: atam, aşıq Mahmud və Kamandar...

**-Bütün havaları ifa etsən də yəqin ki, onlardan biri daha doğma, daha ürəyincədir?!.**

-Mənim öldüyüm hava "Ruhani"dir. Onu hər aşıq oxuya bilmir. Allah rəhmət eləsin Kamandara. Vay-vay-vay, oxuyurdu haaa!!!

Ümumiyyətlə, bu saz-söz ki var, aşığın var-dövlətidir. Rəhmətlik Kamandar deyirdi:

*Sənət meydanında qurulub xanam*
*Bir sazım, sözümdür varım-barxanam...*

*Yadıma bir əhvalat düşdü. Bir dəfə qonşumuzun evinə yanğın düşmüşdü. Bir də gördük ki, yanğın bizim evə keçir. Tez özümü içəri atdım, saz və kitab-dəftərimi götürdüm. Soruşdular ki, ayə ay aşıq, sənin barxanan elə budur. Cavab verdim: "Aşığın bundan böyük barxanası olmaz ki?!..."*

*Tanrıma çox şükür edirəm ki, mənim varım-dövlətim, barxanam məhz bu sazdır, kitabdır, dəftərdir. Bu dövlətimlə xoşbəxtlər-xoşbəxtiyəm...*

*Y. ARAPLI*